

## ZAUR İLHAMOĞLU

### OLMAYAYDI

Kaş dünya yaxşılarla hər an aşıb-daşaydı,
Yamanlar olmayaydı, fitnələr olmayaydı.
Hər kəs əziz olaydı, hər kəs doğmalaşaydı,
Ögeylər olmayaydı, özgələr olmayaydı.

Həyat sevindirəydi insan olan hər kəsi,
Xoşbəxtlik gətirəydi aldığı hər nəfəsi.
Hamının bir Vətəni olaydı Yer kürəsi,
Sərhədlər olmayaydı, ölkələr olmayaydı.

Hər kəsin xoş əməli onu nişan verəydi,
Kimsə qan tökməyəydi, əksinə qan verəydi.
Tanrım nə dərd verəydi, nə də dərman verəydi,
Şikəstlər olmayaydı, xəstələr olmayaydı.

"Varlı", "kasıb" deyərək bölünməzdik hissəyə,
Düşməyəydi ürəklər nə qəmə, nə qüssəyə.
Hamı bir ailə kimi əyləşəydi süfrəyə,
Kütlələr olmayaydı, zümrələr olmayaydı.

Nə müdhiş müharibə, nə də savaş olaydı,
Nə də ki insanların gözündə yaş olaydı,
Nə də kimsə qəfildən gülləyə tuş olaydı.
Mərmilər olmayaydı, qəlpələr olmayaydı.

Ruhumuzu sarardı sevinc dolu duyğular,
Çıxardı qarşımıza həqiqətlər, doğrular.
Yarımçıq qalmayaydı etdiyimiz arzular,
"kaş ki" lər olmayaydı, "bəlkə"lər olmayaydı.

### GEDƏCƏM DÜNYANIN O BİR BAŞINA

Gedəcəm dünyanın o bir başına,
Dünyanın bu başı məni açmadı.
Bu başın günləri qaranlıq imiş,
Burda gün çıxmadı, işıq saçmadı.

Gedəcəm dünyanın o bir başına,
Burda yaşananlar dərddən seçilmir.
Bu yerdə min sifət, min dənə üz var,
Buranın qoyunu qurddan seçilmir.

Gedəcəm dünyanın o bir başına,
Bu yerdə gözləri pərdələyiblər.
Burda yaxşılığın izi-tozu yox,
Burda insanlığı dəfn eləyiblər.

Gedəcəm dünyanın o bir başına,
Burda müharibə, dava-dalaşdır.
Bu yerdə analar sinəsi dağlı,
Burda bacıların gözləri yaşdır.

Gedəcəm dünyanın o bir başına,
Burda əyləncədir sevgi-məhəbbət.
Bu yerdə yaşanan sevgi hissləri,
Büsbütün ehtiras, büsbütün şəhvət.

Dünya da fırlanır, yerində durmur,
Gün keçir... Oyandın yatana kimi.
Qorxuram o başı bu başı olar,
Mən gedib o başa çatana kimi.

### ÖZÜNƏ DƏYƏR VER

Sən ki sən olaraq dünyaya gəldin,
Sənin varlığında bir nəfər "sən" var.
Sən başqa kimsəyə bənzəmə heç vaxt,
Çalış özün kimi olmağı bacar.

Əgər insanları sevmək istəsən,
Hər kəsdən birinci özünü sev sən.
Yadında saxla ki, özünü sevsən,
Onda həm sevəcək, seviləcəksən.

Özünü araşdır, özünü tanı,
Bax görüm, bir kimsən,
nahaqsan, haqsan?
Özünü tanısan, bu dünyadakı
Bütün insanları tanıyacaqsan.

Özünə dəyər ver, öz dəyərini
Düşünmə kiminsə dəyərindən az.
Özünü dəyərsiz sansan həyatda,
Kiminsə yanında dəyərin olmaz.

Özünə güvənin olsun hər zaman,
Güvənsiz boş şeydir əqidə, məslək.
Güvənin yoxdursa, yadda saxla ki,
Sənə bir nəfər də güvənməyəcək.

Sev öz vətənini, sev, özün kimi,
Ayır vətənində yaxşını, pisi.
Unutma hər kəsdən, hər şeydən öncə,
Özündən başlayır vətən sevgisi.

## *REALLIQ*

Bir gün şeirlər kitabım yanacaq.
Külə dönəcək.
Qarışacaq torpağın qoynuna
İtəcək torpağın ağuşunda…
İtəcək... İtəcək.
Bir zaman olacaq
O torpaqda bir ağac bitəcək.
Köklü, budaqlı bir ağac.
Və insan oğlunda doğan ehtiyac
Onu gövdə-gövdə, budaq-budaq
Kəsəcək, doğrayacaq.
Kağız emal edəcəklər
Qalaq-qalaq, dəstə-dəstə.
Hansısa bir şair şeirlər yazacaq
O kağızlar üstə.

Haqq-hesab dünyasıdır.
Hər kəs öz payını götürür
Bu dünyanın haqq-hesabında.
Mən də şeirlər yazıram
Hansısa şairin "yanmış şeirlər kitabı"nda.

## *UZAQLIQ, YAXINLIQ*

Yolumuz uzaqdır… Ürəklər yaxın,
Uzaqlıq, yaxınlıq… təzada bir bax.
Sən demə, həyatda mümkün olurmuş
Uzaqlıq içində yaxınlıq olmaq.

Nə qədər duysa da bu uzaqlığı
Ürək qəbul etmir... Bu nə inaddır?
Gözlər uzaqlığı hiss edə bilər
Ürəklər uzaqlıq hissinə yaddır.

Bəlkə gözlərin də ürəklər kimi
İçində bir hissi, duyğusu olur.
Axı dikiləndə yollar üstünə
Hər baxış qovuşmaq arzusu olur.

Belə olmasaydı axı həyatda
Gözlər saatlarla yol çəkərdimi?
Onlar duymasaydı bu uzaqlığı
Gecələr gizlicə yaş tökərdimi?

Uzaqlıq... Yaxınlıq... Sən bu ölçüdə
Mənimlə eynisən, mənimlə tənsən.
Uzaqlıq həyatım adı-sənsizlik
Yaxınlıq-sənsizlik içində "sən"sən.

Yolumuz uzaqdır... Ürəklər yaxın.
Yazılmış bizimçün bu qismət, qədər.
Uzaqlıq içində yaxın olaraq,
Yaşayaq bu ömrü sonuna qədər.

## *KİTABLARI OXUDUQCA...*

Kitabları oxuduqca
Bu dünyada say-hesabsız
Yolu gördüm, izi gördüm.
Yol üstündə yol yürüyən insanların
Amalında, məsləkində
Səhvi gördüm, düzü gördüm.
Kimlərisə xoşbəxt olub danışdıran,
Xoşbəxtliyin təcəssümün
Kimlərisə bədbəxt olub,
Öz içindən alışdıran
Odu gördüm, közü gördüm.

Kitabları oxuduqca
Daha da çox anladım ki,
Qanunsuzluq kütləsindən parçalanan zərrə-zərrə
Biz görməyən, biz duymayan
Qanun nədir, qayda nədir?
Üzdə mənasız saydığım nələr varsa,
İçindəki sədəf içrə gizlədilmiş inci kimi
Anlam nədir, məna nədir?
Olumunla ölümünün arasında yaşadığın
Sirr dolusu, möcüzəli
Həyat nədir, dünya nədir?

Kitabları oxuduqca
Vərəqlərdə pıçıldaşan
Səsi sevdim, ünü sevdim.
Kitablarda Aya dönən, Günə dönən kəlmələri,
Kəlmələrin dolaşdığı asimandan
Cahilliyin zil qaranlıq dünyasına nur çiləyən
Ayı sevdim, Günü sevdim.
Kitabları oxuduqca insanlara sevgim artdı
Səni sevdim, onu sevdim,
İçimdəki "mən"i sevdim.